*Nurlan SALAMOV*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ KİV MƏSƏLƏLƏRİ
## (Tezis)

Azərbaycan mətbuatının inkişaf dinamikasında əsas yerlərdən birini Azərbaycan Xalq Cümhuriyyəti dövründəki mətbuatın fəaliyyəti tutur. Şimali Azərbaycanda ilk dəfə müstəqilliyin əldə edilməsi Cümhuriyyət dövrü Azərbaycan mətbuatına müsbət təsirini göstərərək kütləvi informasiya vasitələrinin (KİV) həm kəmiyyət, həm də keyfiyyət baxımından inkişafına gətirib çıxarmışdır.

AXC dövrü mətbuatı maarifçilər və millətin öncüllərinin əsas tribunası olmuşdur. Azərbaycan Cümhuriyyətində M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə, N.Yusifbəyli, Ə.Topçubaşov, Ü.Hacıbəyli, C.Hacıbəyli, Ş.Rüstəmbəyli, Ə.Cavad, H.Cavid və digərləri kimi xalq fədailəri öz yazıları ilə də cəmiyyətin inkişafı naminə çalışmışlar.

AXC dövründə mətbuatın fəaliyyətinin başlıca istiqamətini Azərbaycan Parlamentinin rəsmi orqanı olmuş "Azərbaycan" qəzeti müəyyən edir. Burada dərc olunmuş hesabatlar, şərhlər və bir sıra yazılar Cümhuriyyət dövrünün siyasi, sosial, iqtisadi, mədəni həyatı haqqında müəyyən təsəvvürə malik olmağa şərait yaradır.

AXC dönəmi mətbuatının tipologiyasının rəngarəng mənzərəsi, satirik, təlim-tərbiyə, təhsil, mədəniyyət tipli mətbu orqanları, xüsusilə, bu dövrdə Azərbaycanda erməni dilində bir sıra qəzetlərin fəaliyyət göstərməsi

Azərbaycan Cümhuriyyətində fikir və söz azadlığı, plüralist, balanslı jurnalistikanın mövcudluğunun sübutudur.

Azərbaycan mətbuatında KİV və dövlət münasibətlərinin formalaşması da bu dövrə təsadüf edir. 1919-cu ildə "Mətbuat haqqında Nizamnamə"nin qəbulu ilə ölkədə KİV-in hüquqi tənzimlənməsi sahəsində ilk addım atılmış, jurnalistikanın hüquqi bazasının əsası qoyulmuşdur.

AXC dövründə dövlətin beynəlxalq əlaqələrində KİV-in yeri və rolu danılmazdır. Cümhuriyyət rəsmiləri jurnalistikanın gücü və funksiyalarından kifayət qədər səmərəli istifadə etmiş, ölkənin inkişafının KİV-in inkişafından asılı olduğunu dərk etmiş və buna adekvat olaraq, uyğun tədbirlər görmüşlər.

AXC jurnalistikasının bir sıra məsələləri elmi tədqiqata cəlb olunmuş, görkəmli alimlər bu dövr KİV-ini və onun ayrı-ayrı nümayəndələrinin fəaliyyətini xarakterizə edən sanballı elmi əsərlər ortaya qoymuşlar.

***Şəbnəm CAVADZADƏ***
Sebis.cavad@gmail.com